Kazuslar

Hal 1
Loris Bosniya vətəndaşıdır. O, keçmiş Yuqoslaviyada anadan olmuş və 2003-cü ildə Yunan vətəndaşı ilə ailə həyatı qurduğu vaxtdan etibarən Yunanıstanda yaşamışdır. 2004-cü ildə cütlüyün övladı anadan olmuşdur. Loris yaşayış üçün icazənin əldə edilməsi ilə bağlı müraciət etmiş və tələb olunan tibbi müayinədən keçdiyi zaman onda müsbət HİV virusu aşkar edilmişdir. Onun yaşayış icazəsi üçün müraciəti müsbət HİV virusuna malik əcnəbilərə yaşayış icazəsinin verilməsini qadağan edən müddəa əsas gətirilərək rədd edilmişdir. O imtinaya qarşı məhkəmədə etiraz etmiş, lakin bütün müraciətləri uğursuz olmuşdur.
Faktlar AİHM tərəfindən təmin olunan hüquqların pozulduğunu aşkar edirmi?

Hal 2
George və Lola evlidirlər. George Toqo mənşəli Danimarka vətəndaşlığı almış şəxsdir, o, 6 yaşından 21 yaşınadək Qanada yaşamış, 1993-cü ildə 22 yaşı olarkən Danimarkaya gəlmiş və 2002-ci ildə Danimarka vətəndaşlığını əldə etmişdir. O, Lola ilə 2003-cü ildə Qanada ailə həyatı qurmuşdur. Lola Qanada anadan olmuş və böyümüş Qana vətəndaşıdır və ailə qurduğu müddətdə Danimarkaya heç zaman səfər etməmiş və Danimarka dilində danışmamışdır. Ailə qurduqdan sonra, Lola Danimarkada yaşayış hüququnun əldə edilməsi ilə bağlı müraciəti Əcnəbilər ilə İş üzrə Orqan tərəfindən cütlüyün Əcnəbilər haqqında Qanun ("bağlılıq tələbi" kimi tanınan) tələblərinə cavab vermədikləri, yəni, ailənin qovuşması üçün müraciət edən cütlüyün başqa ölkə - bu halda Qana ilə- Danimarkadan daha sıx əlaqələrinin olması müddəası əsas gətirilərək rədd edilmişdir. "Bağlılıq tələbi" ən azı 28 il Danimarka vətəndaşlığına malik olmuş şəxslər, həmçinin Danimarkada anadan olmuş və/və ya böyümüş və ən azı 28 il ərzində Danimarkada qanuni olaraq yaşamış şəxslər üçün ləğv edilmişdir (bu Əcnəbilər haqqında qanuna əsasən 28 il qaydası adlanır).

Cütlüyün Danimarka məhkəmələrində ailənin qovuşmasının əldə olunması üçün müraciətinin imtinasına etirazları uğursuz olmuşdur. Onlar qeyd etmişlər ki, 28 illik qayda Danimarka vətəndaşlarının iki qrupu, daha dəqiq desək Danimarkada anadan olmuş və daha sonra Danimarka vətəndaşlığı almış şəxslər arasında ayrı seçkilik yaratmışdır. Bu səbəbdən George 2030-cu ilə qədər, yəni 59 yaşına kimi "qoşma tələblərindən" azad edilə bilməz.

Bu arada Lola Danimarkaya turist vizası ilə daxil olmuşdur. Bir neçə ay sonra cütlük İsveçə köçmüş və 2004-cü ildə burada oğulları dünyaya gəlmişdir. Onların oğlu atasının vətəndaşlığına əsasən Danimarka vətəndaşlığına malikdir.

Hal 3
Nada 1998-ci ildən bəri övladlar ilə birgə rəsmi şəkildə siyasi qaçqın kimi tanınan Suriya vətəndaşıdır. Onlar hamısı Yunanıstanda qanuni olaraq yaşayış hüququna malikdirlər. 2005-ci ildə ailə müavinəti orqanı böyük ailəyə malik analara ödənilən müavinətin əldə edilməsi ilə bağlı Nadanın müraciətlərini rədd etmişdir. İmtina qərarı qanunvericiliyə əsasən Nadanın "böyük ailəyə malik ana" statusuna malik olmaması, nə onun, nə də övladlarının Yunanıstan vətəndaşlığına və ya Avropa İttifaqına üzv ölkələrin vətəndaşlığına malik olmaması və ya Yunan mənşəli qaçqın olmaması ilə izah olunurdu. Nadanın qərar qarşı etirazları uğursuz idi.

Hal 4
Mərakeş milliyyətinə malik Əhməd Belçikada müxtəlif kriminal cinayətlərdə ittiham olunmuşdur. Nəticə etibarilə o, deportasiya edilmişdir. Əhməd deportasiya qərarının ona qarşı ayrı-seçkilik olduğunu iddia edirdi. O ayrı-seçkiliyin milliyyət əsasında olduğunu iddia edərək, Belçika millilərinin kriminal cinayətlərdə ittiham olunduqdan sonra deportasiya ilə üzləşmədiklərini əsas

gətirirdi. O haqlıdırmı? O, həmçinin evli olması səbəbindən Mərakeşə deportasiya qərarının onun ailə həyatı hüququna xələl yetirəcəyini bildirdi. Nə düşünürsünüz?

Hazırladı: İvana Roagna